# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN KİMYA KURSUNDA KİMYƏVİ RABİTƏ SAYLARININ HESABLANMASI ÜSULLARI

**M.M.Abbasov, S.M.Abbaszadə, A.V.Zülfiqarova, V.H.Əsgərov**

Məktəb kursunda kimyəvi rabitələrin əsas dörd növü-ion, kovalent, hidrogen və metal rabitələri tədris olunur. Bizim tədqiqat işimiz isə kimyəvi birləşmələrdə əsasən σ (siqma) və π(pi)-rabitələrin saylarının riyazi hesablanmasına aiddir.

Pedaqoji ədəbiyyatda bu istiqamətdə ciddi bir elmi tədqiqat işi aparılmamış və diqqətdən kənarda qalmışdır. Bəzi ədəbiyyatlarda isə ayrı-ayrı sinif birləşmələrdə polyar-kovalent rabitələrin hesablanması üçün müxtəlif üsullar verilmişdir. Məsələn [1, 12]-ci ədəbiyyatda oksigenli turşuların, eləcədə ammonium duzlarında, əsaslarda polyar-kovalent rabitələrin saylarının hesablanması üsulları aşağıdakı kimi izah olunur.

Oksigenli turşuların normal və ikiqat duzlarında polyar-kovalent rabitənin sayı turşu əmələgətirən elementin valentliyi ilə turşu qalığının sayına olan hasilinə bərabər olur.

| Normal duz | Molekulunda polyar-kovalent rabitələrin sayı | İkiqat duz | Molekulunda polyar-kovalent rabitələrin sayı |
|---|---|---|---|
| $Na_2\overset{VI}{S}O_4$ | 6 | $NaK\overset{VI}{S}O_4$ | 6 |
| $K_3\overset{V}{P}O_4$ | 5 | $Na_2K\overset{V}{P}O_4$ | 5 |
| $Ca(\overset{IV}{N}O_3)_2$ | 8 | $NaAl(\overset{VI}{S}O_4)_2$ | 6 |
| $K_2\overset{IV}{C}O_3$ | 4 | $KNa\overset{IV}{C}O_3$ | 4 |

Oksigenli turşuların turş duzlarında polyar-kovalent rabitənin sayı turşu əmələ gətirən elementlə turşunun əsaslığına aid olub,metalla əvəz olunmayan hidrogenin sayı cəminin turşu qalığının indeksinə hasilinə bərabər olur.

| Turş duzlar | | | |
|---|---|---|---|
| Hidroduzlar | Molekulunda polyar-kovalent rabitələrin sayı | Dihidroduzlar | Molekulunda polyar-kovalent rabitələrin sayı |
| $NaH\overset{IV}{C}O_3$ | 5 | $NaH_2\overset{V}{P}O_4$ | 7 |
| $Ca(H\overset{VI}{S}O_4)_2$ | 14 | $Ca(H_2\overset{V}{P}O_4)_2$ | 14 |
| $Na_2H\overset{V}{P}O_4$ | 6 | $Al(H_2\overset{V}{P}O_4)_3$ | 21 |

Əsasi duzlarda polyar-kovalent rabitələrin ümumi sayı hidroksil qrupunun sayı və oksgenli turşu qalığındakı turşu əmələ gətirən elementin valentliyi ilə indeksi hasilinin cəminə bərabər olur.

| Əsasi duzlar | | | |
|---|---|---|---|
| Hidrokso duzlar | Molekulunda polyar-kovalent rabitələrin sayı | Dihidrokso duzlar | Molekulunda polyar-kovalent rabitələrin sayı |
| $Cu(OH)Cl$ | 1 | $Fe(OH)_2Cl$ | 2 |
| $Al(OH)\overset{VI}{S}O_4$ | 7 | $Al(OH)_2\overset{IV}{N}O_3$ | 6 |

| Qarışıq duzlarda da bu qaydalar gözlənilir | |
|---|---|
| Qarışıq duzlar | Molekulunda polyar-kovalent rabitələrin sayı |
| $CaCl\overset{IV}{N}O_3$ | 4 |
| $Al\overset{IV}{N}O_3\overset{VI}{S}O_4$ | 10 |
| $CrBr\overset{VI}{S}O_4$ | 6 |

Oksigensiz turşuların ( HF, HCl, HBr, HJ, $H_2S$) qələvi metal (Li, Na, K) və qələvi torpaq metallarla (Ca, Sr, Ba) normal duzlarında əsasən ion rabitəsi olur.

Duzlarda və qələvilərdə polyar-kovalent rabitələrin sayı daha dəqiq onların qrafik formulları ilə müəyyən edilir.

Əsaslarda polyar-kovalent rabitələrin sayı (ammonium duzlarından başqa) molekulundakı hidroksid qruplarının sayına bərabərdir.

| Əsaslar | Molekulunda polyar-kovalent rabitələrin sayı |
|---|---|
| NaOH | 1 |
| $Cu(OH)_2$ | 2 |
| $Al(OH)_3$ | 3 |

Oksigenli turşuların malekulundakı polyar-kovalent rabitələrin sayı turşunun əsaslığına bərabər olur.

| Turşular | Əsaslılığı | Molekulunda polyar-kovalent rabitələrin sayı |
|---|---|---|
| HCl | 1 | 1 |
| HBr | 1 | 1 |
| $H_2S$ | 2 | 2 |

Oksigenli qeyri-üzvü turşuların molekulunda polyar-kovalent rabitələrin sayı turşu əmələ gətirən elementin valentliyi ilə turşunun əsaslığına aid olan hidrogen atomlarının sayı cəminə bərabərdir.

| Turşular | Əsaslılığı | Molekulunda polyar-kovalent rabitələrin sayı |
|---|---|---|
| $H_2\overset{IV}{C}O_3$ | 2 | 6 |
| $\overset{I}{H}\overset{V}{N}O_3$ | 1 | 6 |
| $H_3\overset{V}{P}O_2$ | 1 | 6 |
| $H_3\overset{V}{P}O_3$ | 2 | 7 |
| $H_3\overset{V}{P}O_4$ | 3 | 8 |
| $H_2\overset{VI}{S}O_4$ | 2 | 8 |

Ammonium ionunda $(NH_4^+)$ polyar-kovalent rabitələrin sayı 4-ə bərabərdir.Onda ammoniumlu birləşmələrə yuxarıdakı qaydaları tətbiq etsək onlardakı polyar-kovalent rabitələrin sayı aşağıdakı kimi olar.

| Ammoniumlu birləşmələr | Molekulunda polyar-kovalent rabitələrin sayı |
|---|---|
| $NH_4OH$ | 5 |
| $NH_4Cl$ | 4 |
| $(NH_4)_2\overset{VI}{S}O_4$ | 14 |
| $(NH_4)_2H\overset{V}{P}O_4$ | 14 |

[1, 12]-ci ədəbiyyatda yalnız qrafik quruluşa əsasən üzvi maddələrdə siqma rabitələrin saylarının hesablanması qaydası verilmişdir.

Qeyri-metal atomları arasında birqat(təkqat) rabitələrin hamısı siqma, ikiqat rabitələrdən biri siqma, digəri $\pi$(pi), üçqat rabitələrdən biri siqma, ikisi isə $\pi$(pi) rabitədir. Məsələn,





[10]-cu ədəbiyatdada eyni ilə [12]-ci ədəbiyatdada olduğu kimi siqma və $\pi$- rabitələrin saylarının yalnız qrafik formul əsasında hesablanması qaydası verilmişdir.

Ədəbiyyat [1]-də üzvi birləşmələrin ayrı-ayrı siniflərinin ümumi formulu əsasında siqma rabitələrin hesablanması üsulları verilmişdir.

| Karbohidrogenlərin ümumi formulu | Alkan $C_nH_{2n+2}$ | Alken $C_nH_{2n}$ | Alkin $C_nH_{2n-2}$ | Alkadien $C_nH_{2n-2}$ | Aren $C_nH_{2n-6}$ | Tsikloalkan $C_nH_{2n}$ |
|---|---|---|---|---|---|---|
| Molekulunda: Siqma rabitələrin ümumi sayı | *3n+1* | *3n-1* | *3n-3* | *3n-3* | *3n-6* | *3n* |
| π (pi) rabitələrin sayı | - | 1 | 2 | 2 | 1 | - |

| Oksigenli üzvi birləşmələr | Doymuş biratomlu spirtlər $C_nH_{2n+1}(OH)$ | Doymuş ikiatomlu spirtlər $C_nH_{2n}(OH)_2$ | Doymuş aldehidlər və ketonlar $C_nH_{2n}O$ | Doymuş birəsaslı karbon turşuları $C_nH_{2n}O_2$ |
|---|---|---|---|---|
| Molekulunda: | | | | |
| Siqma rabitələrin ümumi sayı | *3n+2* | *3n+3* | *3n* | *3n+1* |
| π (pi) rabitələrin sayı | - | - | 1 | 1 |

Yuxarıdakı misallardan görünür ki, nə qeyri-üzvi, nədə üzvi birləşmə malekulunda rabitələrin saylarının hesablanması üçün ümumi formul yoxdur.

## İstifadə edilmiş ədəbiyyat:

1. M.M.Abbasov. Kimya I hissə. DİK, Abituriyent, 2007, 420 s.

2. R.Ə.Əliyeva, V.M.Abbasov, M.M.Məhərrəmov, M.M.Abbasov və b. VIII sinif kimya dərsliyi. Bakı, Aspoliqraf, 2015, 208 s.

*М.М.Аббасов, С.М.Аббасзаде, А.В.Зюлфигарова, В.Х.Аскеров*

**Методы расчета химических связей в курсе химии в общеобразовательных школах**

**РЕЗЮМЕ**

В статье представлены объяснения видов химических связей, правила их расчетов, методы расчета сигма и пи- связей органических, и полярно-ковалентных связей отдельных неорганических молекул как учебный материал для общеобразовательских школ.

*M.M.Abbasov, S.M.Abbaszade, A.V.Zulfigarova, V.H.Asgerov*

**Methods for calculating chemical bonds in the course of chemistry in general schools**

**SUMMARY**

The article provides explanations of the types of chemical bonds, the rules of their calculations, methods for calculating sigma and pi- bonds of organic, and polar-covalent bonds of individual inorganic molecules as educational material for general education schools.

**Açar sözlər:** kimyəvi rabitə, qeyri-polyar, polyar kavalent rabitə, siqma, pi-rabitə

**Ключевые слова:** полярная и неполярная ковалентная связь, сгма связь, пи-связь

**Key words:** chemical bond, polar and nonpolar covalent bond, sigma bond, pi-bond.